https://doi.org/10.36719/2706-6185/41/7-13

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevincsadigova@gmail.com
https://orcid.org/0000-0001-8720-3262

# Qərbi Azərbaycan ərzisindəki etnotoponimlər

**Xülasə**

Qərbi Azərbaycan toponimləri yalnız toponimika və linqvistika üçün deyil, Azərbaycan tarixinin öyrənilməsi üçün də qiymətli mənbədir. Belə ki, bu ərazilərin etnotoponimlərinin linqvistik təhlili Qərbi Azərbaycanın aborigen əhalisi haqqında dəqiq məlumatları əldə etmək üçün qiymətli faktları və sübutları üzə çıxarır.

Qərbi Azərbaycanın Dərələyəz mahalının toponim və mikrotoponimlərinin böyük əksəriyyəti etnonim mənşəlidir. Bir məqalədə onların hamısını təhlilə cəlb etmək mümkün olmadığı üçün, biz onlardan bəzilərini – Qaşqa, Herher, Qılıclı, Sallı, Qanlı, Arınc, Şorca, Daylaxlı, Canı, Qaralar toponimlərini nəzərdən keçirəcəyik. Dərələyəz mahalının bu oykonimlərinin təhlili bu nəticəyə gəlməyə imkan verir ki, bu adlar türk mənşəli etnonimlər əsasında yaranmışlar. Çünki Azərbaycan türkləri bu torpaqların ən qədim sakinləri olmuşlar.

***Açar sözlər:*** *toponim, etnotoponim, Qərbi Azərbaycan, Dərələyəz, oykonim*

**Sevinj Sadigova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
sevincsadigova@gmail.com
https://orcid.org/0000-0001-8720-3262

# Ethnotoponyms in the Region of Western Azerbaijan

**Abstract**

West Azerbaijani toponyms are a valuable resource not only for toponymy and linguistics, but also for the study of Azerbaijani history. In particular, the linguistic analysis of the ethnotoponyms of these areas reveals valuable facts and invaluable evidence for obtaining accurate information about the aboriginal population of Western Azerbaijan.

The vast majority of toponyms and microtoponyms in Daraleyaz district of Western Azerbaijan are related to ethnonyms. Since it is impossible to analyze all of them in one article, we will examine some of them – Kashga, Herher, Kilicli, Salli, Kanli, Arinc, Shorca, Daylakhli, Cani, Karalar ethnotoponyms.

From the analysis of these oikonyms in the Darelayaz area, we can draw a conclusion that these names were formed on the basis of ethnonyms of Turkish origin. Therefore, Azeri Turks have been living in these lands since ancient times.

***Keywords:*** *toponyms, ethnotoponyms, Western Azerbaijan, Daraleyaz, oyconyms*

## Giriş

Qərbi Azərbaycan toponimləri yalnız toponimika və dilçilik üçün deyil, Azərbaycan tarixinin öyrənilməsi üçün də qiymətli mənbədir. Xüsusən də bu ərazilərin etnotoponimlərinin linqvistik təhlili Qərbi Azərbaycanın aborigen əhalisi barədə dəqiq məlumat almaq üçün dəyərli faktları, əvəzsiz sübutları üzə çıxarır. Qərbi Azərbaycanın Dərələyəz mahalının ərazisindəki toponim və mikrotoponimlərin böyük əksəriyyəti etnonimlərlə bağlıdır. Bir məqalədə bunların hamısını təhlilə cəlb etmək mümkün olmadığı üçün, biz onlardan bir qismini – Qaşqa, Herher, Qılıclı, Sallı, Qanlı, Arınc, Şorca, Daylaxlı, Canı, Qaralar etnotoponimlərini araşdıracağıq.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

Dərələyəzdəki Qaşqa oykoniminin izləri kök etibarilə çox qədimlərə gedib çıxır. "Azərbaycan xalqının soykökündə duran qəbilə birləşmələrinin yerini, yurdunu, tarixdə tutduğu mövqeyini, durumunu öyrənmək üçün het abidələrinin də böyük rolu vardır. Eradan qabaq 1345-1320-ci illərdə hökmranlıq etmiş II Murşil hakimiyyətinin doqquzuncu ilindən söhbət açan abidədə Qaşqayların da adı çəkilir... "Qaşqay" etnik-soy, qəbilə adı türk dilləri, o sıradan Azərbaycan dili ilə bağlı sözdür. "Qaşqay" – "qaşqa" və "ay" tərkiblərindən yaranmışdır. "Qaşqa" bir çox türk dillərində "yandırmaq", "alovlandırmaq", "işıq vermək", "işıldamaq" deməkdir. Bir çox xalqlarda soy, qəbilə, xalq, ilahi, tanrı insan, ulu ata-ana adlarındakı "ay" tərkibi göstərir ki, o, ümumtürk dilli sözdür və çox-çox əskilərdə belə işlənmişdir. Çoxanlamlı "ay" sözünün "ilahi", "yaradıcı", "tanrı" anlamları da vardır. Beləliklə, "Qaşqay" sözünün, qəbiləbirləşməsinin adının anlamı aydınlaşır. Qaşqay – parıldayan, işıq verən tanrı, yaradıcı deməkdir (Seyidov, 1989, s. 20-21). Əsasən Gəncədə və ətraf bölgələrdə məskunlaşan qaşqaylar sonralar başqa Azərbaycan torpaqlarına da səpələnmişlər. Qax rayonunda Qaşqaçay kəndi, Gəncə ətrafında Qaşqa çayı, Qoşqar dağı, Qaşqatala, Qərbi Azərbaycanda Dərələyəzdəki Qaşqa kəndindən başqa, Vedibasar mahalında Qaşqa kəndi, Özbəkistanda Qaşqadərya adlı vilayət vardır. "Hazırda qaşqayların çox böyük hissəsi İran və İraq ərazisində yaşamaqdadırlar. Təkcə İranın cənubunda 1970-ci ilin məlumatına görə, 350 min nəfər qaşqay türkü yaşamışdır" (Ələkbərli, 2000, s. 279). "Qaşqayların mənşəyi qaranlıqdır. Ehtimal ki, xakaslarda Kaska və Aq kaska tayfaları ilə eyni mənşəlidir" (Budaqov, Qeybullayev, 1998, s. 198).

Göründüyü kimi, kökləri çox-çox qədimlərə, eramızdan 14 əsr öncəyə gedib çıxan qaşqay etnoniminin izləri bir sıra toponimlərdə, o cümlədən Dərələyəzdəki Qaşqa oykonimində qorunub saxlanmışdır.

Dərələyəz mahalındakı ən qədim etnotoponimlərdən biri Herher oykonimidir. Bu oykonim qədim türk tayfalarından biri olan qarqar etnonimi əsasında yaranmışdır. Qarqar etnoniminin adı çox müxtəlif fonetik variantlarda (Herher, Gerger, Xerxer, Qerqer, Qarqar) işlənmiş və tarixi sənədlərdə öz əksini tapmışdır: Ptolomey Qarqar məntəqəsinin, Strabon Şimali Qafqazda yaşayan qarqar tayfasının, Favst Buzand (V əsr) Her mahalının, Aqafanqel (V əsr) Her mahalının, Moisey Xorenski (V əsr) Qarqar knyazlığının və Qarqar düzənliyinin, Asogik (XI əsr) Qarqar düzənliyinin, Böyük Vardan (XIII əsr) Qarqar vilayətinin və qarqar tayfalarının, Musa Kalankatlı qarqar tayfalarının, Kirakos Qandzaketsi Karkar toponiminin, İbn Xordadbeh (IX əsr) Karkar toponiminin, İdrisi (XII əsr) Dərbənd yaxınlığında Karkar şəhərinin, Yaqut Həməvi Karkar toponiminin, Həmdullah Qəzvini (XIV əsr) Mərənd ərazisindəki Karkar ticarət şəhərinin, "Dərbəndnamə"də (XVII əsr) VI-VII əsr hadisələri ilə əlaqədar Karkar toponiminin adı qeyd olunur. Göründüyü kimi, ilkin mənbələrdə bu ad "her (qer)" formasında, sonrakı mənbələrdə isə qoşa, təkrar formada verilmişdir ki, bu da mənşə etibarilə çox qədim olan cəmlik bildirmə üsuludur. Dərələyəz ərazisindəki Salsal, Herher, Qarabağdakı Xalxal, Tərtər toponimləri məhz bu üsulla formalaşmışdır. "Qərbi Azərbaycan ərazisinin qədim türk tarixi ilə bağlı bilgilərə qədim Asur və Urartu mixi yazılarında da tez-tez rast gəlirik. Öncə xatırladaq ki, e.ə.1200-cü ilə aid Asur yazılarında adı çəkilən türksoylu Xarxar//Qarqar ölkəsinə həm də indiki Qərbi Azərbaycan ərazisi daxil idi. Təsadüfi deyil ki, Xarxar//Qarqar// Gərgər//Herher variantlarında günümüzə qədər gəlib çıxan bu etnonimin izləri bu gün bütöv Azərbaycan, o cümlədən Qərbi Azərbaycan ərazisində qeydə alınmış yüzlərlə toponimdə yaşamaqdadır. Təkcə elə İrəvan xanlığı tərkibinə daxil olan 15 mahaldan 2-si (Qarnibasar və Qarbibasar) bu etnosun adını daşımışdır" (Ələkbərli, 2006, s. 10).

Qarqarlar miladdan qabaq IV-II yüzilliklərdə Qafqaz dağlarının ətəklərində, sonrakı dövrlərdə isə həm də Qarabağ düzənliklərində məskunlaşmışlar. Lakin sonradan onların məskunlaşdığı ərazilər genişlənmişdir. Çünki Qarqar etnonimi və onun fonetik variantları olan Karkar, Xarxar, Xalxal, Xerxer, Herher, Qerqer, Gərgər etnonimlərinin arealı çox böyükdür. "XIX əsrdə Yelizavetpol quberniyasının Yelizavetpol qəzasında Gərgər, Şuşa qəzasında Gərgər, Borçalı qəzasında mənbəyini Boz Abdal dağından götürən Gərgərçay, Dağlıq Qarabağda Maçkalaşen kəndi yaxınlığında Herher kənd xarabalığı, Dağlıq Qarabağda Qarqardağ silsiləsi və b. toponimlərlə mənşəcə eynidir. XVIII əsrin ortalarına aid ermənicə mənbədə Türkiyənin şərqində Karqar adlı

kənd qeyd olunmuşdur. Qərbi Azərbaycanın Stepanavan, Əzizbəyov rayonlarında kənd adları, Əzizbəyov rayonunda Arpaçayın qollarından birinin adı Gərgər olmuşdur.

Qarqarların qədim Alban tayfalarından birinin adı olduğunu qeyd edən N.Məmmədov yazır ki: "Qarqar sıra dağları, Qarqar düzü, Qarqar çayı hələ bizim eradan əvvəl Azərbaycanda məskən salan türkdilli Qarqar tayfasının adını bir abidə kimi qoruyub saxlamışdır" (Məmmədov, 1993, s. 111, 137-138).

"Qarqar boylarının yaşadığı yerlərdə çoxlu çay, dağ, ovalıq, bölgə və yaşayış məskənləri qarqar etnotoponimi ilə adlanmışdır. Quzey Azərbaycanda bir sıra Qarqar, Karkar və Xarxar adlı yaşayış məskəni olduğu kimi, Güney Azərbaycanda da Kərkər, Kərkəre-olya (Yuxarı Kərkər), Baba Kərkər kəndləri və Qarqar, Karkar, Xarxar və hətta adı Xorxor şəklinə düşmüş xeyli yaşayış məskəni vardır. Azərbaycan və Türkmənistanda bir neçə Qarqar çay mövcuddur. M.Xorenatsi (V əsr) Mil düzünün bir hissəsini Qarqar çölü kimi vermişdir. Qazaxıstanda Karkarli dağı, Azərbaycanda isə Qarqar dağ vardır..." (Ağasıoğlu, 2000, s. 140-144).

Qarqar etnonimi əsasında yaranmış toponimlərin arealına, eləcə də bir sıra tarixi faktlara əsaslanaraq demək olar ki, qarqar tayfaları türkmənşəli olmuşlar və Dərələyəzdəki Herher oykonimi bu etnonimin fonetik dəyişikliyə uğramış formasıdır.

Dərələyəzdəki **Qılıclı** oykoniminin və Qılıclıdərə oroniminin paralellərinə Qərbi Azərbaycanın Gorus rayonunda Qılıcan, Dərəçiçək nahiyəsində Qılıcanulya və Qılıcansufla, Qırxbulaq nahiyəsində Qılıcan, Aleksandropol qəzasında Qılıc-yataq, Zəngəzur qəzasında (Sisyan rayonu) Qılıclı kəndlərinin, Rəvan əyalətinin Zar nahiyəsində Qılıclı məzrəsinin, Talin rayonunda Qılıcdaq dağının adlarında rast gəlirik. Azərbaycan ərazisində Qılıcan (Qubadlı), Qılıçlı (Kəlbəcər), Qılıçlı (Laçın), Qılıncbəyli (Şəmkir) kəndlərinin adı da eyni kökdəndir və qıpçaq mənşəli *kiliç* tayfasının adındandır. "Bu etnonim klışlı formasında qaraqalpaqlarda, Qılıçlı kəndinin adı kimi isə Türkiyədə qeydə alınmışdır. Azərbaycan ərazisində kılıçlı tayfası, əsasən, Şirvanda məskunlaşmışdır. XIX əsrin ortalarında bu nəsildən olanlar 22 kəndin əsasını qoymuşdular. Rusiya Şirvan xanlığını işğal etdikdən sonra burada yaşayan Qılıclı tayfasını 1826-1828-ci illərdə Rus-İran müharibəsinin iştirakçısı V.Q.Mədətova bağışlamışdır. O isə qılıclıları Qarabağa köçürmüşdür. Lakin bu fikir bir qədər mübahisəlidir. Çünki elə həmin mənbədə belə bir məlumat verilir ki, "1688-ci ilə aid məlumata görə, "Qarabağın Ahiştabad aranında (yəni qışlağında) qışlayan bir el Qılıçlı adlanırdı". Bu məlumatdan aydın olur ki, Qılıçlı tayfası daha erkən dövrlərdə Azərbaycanda məskunlaşmış və öz izlərini bir sıra toponimlərdə, o cümlədən Dərələyəzdə **Qılıclı** oykonimində və **Qılıclıdərə** oronimində qoruyub saxlamışdı.

Qədim *hun* tayfalarından olan *sal* etnonimi Dərələyəzdəki **Sallı** kəndinin və Salsal qalasının adında bu günümüzə qədər gəlib çatmışdır. Bundan başqa, "İrəvan əyalətinin icmal dəftəri"ndə (Bünyadov, Məmmədov, 1996) İrəvan əyalətinin Dərələyəz nahiyəsində Salçı kəndinin və "Qafqazın beşverstlik xəritəsi"ndə İrəvan quberniyasının Aleksandropol qəzasında Salut kəndinin adı çəkilir. Gürcüstanda Salieti, Dağıstanda Salian, Ermənistanın iki yerində Sallı, Şimali Qafqazda Sal çayı, Sal çölü, Azərbaycanda Salyan rayonu, Şamaxıda Salar (Saler), Qazaxda Saloğlu adlı kəndlər, Krım ərazisində 4 adda Sala və Kiçik Sala toponimləri onu göstərir ki, *sal* sözü geniş ərazidə yayılan ən qədim türk tayfalarından birinin adıdır.

Sal sözünün etnonim olmasını sübut edən amillərdən biri də "Kitabi-Dədə Qorqud" dastanlarında Salur Qazan adının (burada Salur sözü Qazan xanın mənsub olduğu tayfanı göstərir) olması və ilk orta əsrlərdə Azərbaycanda Salarilər adlı sülalənin hökmranlıq etməsi faktıdır.

V.A.Nikonovun məlumatına görə, Don çayının aşağı axınında onun sol qollarından birinin adı "Sal" (çay) adlanır. Noqay dilində *"sol"* sözü *"sol tərəf"* mənasında, kalmık dilində *"sal"* sözü *"qol" (çay qolu), budaq* mənasındadır. Ona görə V.A.Nikonov kalmık dilindəki mənaya üstünlük verir. Akademik B.Budaqov Azərbaycandakı Salyan oykoniminin Kür çayının sağ sahilində yerləşməsi ilə əlaqədar bu fikirlə razılaşmır və bu etnonimlə bağlı Q.Qeybullayevin fikirlərinə üstünlük verir (Budaqov, Qeybullayev, 1998). Q.Qeybullayev *sal* tayfasının *hun* tayfalarından olduğunu, Salar, Salor, Salur, Salcaq etnonimlərinin də *sal* sözündən törəndiyini qeyd edir.

Salar (Salu) coğrafi adının mənşəyindən bəhs edən R.Eyvazova yazır: "V.V.Radlova görə, *"sal" "ocaq", "od yandırılan yer", "çılğın", "qızğın adam"* anlamlarını bildirir. Azərbaycan dilin-

dəki *"sal qaya"* ifadəsindən görünür ki, *sal "bütöv", "iri", "möhkəm"* anlamında da işlənir. *"Or"*un isə digər anlamları ilə yanaşı *"möhkəmlənmə", "istehkam"* anlamına da tuş oluruq. Salor – yəni ucada (ola bilsin dağda) möhkəmlənmiş, istehkama çevrilmiş, ucada olan ocaq, od, od yandırılan yer, çılğın, qızğın adam deməkdir... Salar, Salu Mahmud Kaşğari "Divan"ında Salğur, Rəşidəddində Salur, Yazıçıoğlu Əlidə Salur, Əbülqazi xan Xivəlidə Salor variantlarındadır. Rəşidəddinə görə, Salur – "haraya varsa, qılınc və çomağı ilə iş görər", Yazıçıoğluya görə, Salur – yəni sal /v/ ur, yəni harayakı yetişsən, qılınc və çomağın rəvan olsun" mənalarındadır". Salar coğrafi adının *salar* etnonimindən törəndiyini qeyd edən R.Eyvazova Çində Qaraman və Akman qəbilələrindən ibarət olan Salar tayfasının (40 mindən çox) yaşadığını bildirir (Eyvazova, 1995, s. 96).

Göründüyü kimi, *sal* etnoniminin mənası *möhkəm, bütöv, iri* deməkdir (Xatırladaq ki, qayı//kayı tayfasının da adı "möhkəm, qayım, bərk" mənasını verirdi. Deməli, türk tayfaları öz igidliklərini, mərdliklərini, möhkəmliklərini bildirmək üçün özlərini belə adlandırmışlar) və bu tayfalar qədim türk məskənlərinin əksəriyyətində, o cümlədən Dərələyəzdə məskunlaşmışdılar.

Ermənilər tərəfindən dağıdılaraq xarabalığa çevrilmiş **Qanlı** kəndinin adı da böyük maraq doğurur. Qərbi Azərbaycan ərazisində Qanlı (Basarkeçər), Qanlıca (Axuryan), Qanlıca (Yeğeqnadzor), Qanlıca (Rəvan əyalətinin Zebil nahiyəsi), Qanlıca (İrəvan əyalətinin Şirakel nahiyəsi) oykonimləri və Qanlıgöl (Novobayazid qəzası) hidronimi qeydə alınmışdır. Qafqazda "qanlı" sözü ilə bağlı çoxlu toponimdə bu söz iki mənadadır: 1. Boğulma, döyüş-savaş və s. ilə bağlı hadisələrlə əlaqədar ölüm (qan tökülməsi); 2. Qanlı (əsli Kanqlı) tayfasının məskunlaşması. Azərbaycanda Qanlıkənd, Bozalqanlı, Qaraqanlı və b. Kəndlərin adlarında əksini tapmışdır. XIX əsrdə Qafqazda iki Kanqlu kəndi vardı. Bu toponim "Kitabi-Dədə Qorqud" dastanları ilə də bağlıdır. Dastanın qəhrəmanlarından birinin adı Qanlı Qocadır. Burada Qanlı sözü həmin şəxsin mənsub olduğu tayfanı bildirir.

"Orta Asiyadakı kanqlı və ya kanlı tayfası 1218-ci ildə monqollar tərəfindən tabe edilmiş və qərbə tərəf hərəkət etmişlər. Kəlbəcər rayonundakı Qanlıkənd etnotoponimi və bir sıra mikrotoponimlər bu etnonimlə bağlıdır. Bozalqanlı, Qaraqanlı (Tovuz r.) və Divarqanlı (İran Azərbaycanı) oykonimlərinin ikinci hissəsi də bu etnonimlə bağlıdır. Deməli, özbək, qaraqalpaq və qazaxların etnik tərkibinə daxil olan *kanqlı* tayfası Azərbaycandakı etnik proseslərdə də iştirak etmişdir.

Əfqanıstan ərazisindəki Kanq, Kənk coğrafi adı barədə araşdırma aparmış R.Eyvazova adın kanqlı etnonimindən yarandığını göstərərək belə bir nəticəyə gəlmişdir ki, qanlı//kanqlı və kəngər//kanqar eyni etnonimin müxtəlif dil və dialekt paralelləridir (Eyvazova, 1995, s. 81).

Qeyd edək ki, Dərələyəzdəki Qanlı etnotoponimini Qanalı formasında verərək hidrotoponim kimi izah edənlər də olmuşdur: "Toponimin ilk komponenti qana, qano formasında "arx, kanal" mənasını bildirir... Qədim türk tayfalarına aid termin olub, hazırda ancaq Azərbaycan dilində işlənir. S.E.Malovun göstərdiyinə görə, sözün ilkin forması "qanu" olmuş, su anbarı və hovuz mənaları ifadə edir. -lı sözdüzəldici şəkilçidir. Hidrotoponimdir (Mirzəyev, 2004, s. 176).

Lakin bu fikirlə heç cür razılaşmaq olmaz. Əvvəla ona görə ki, kəndin adı Qanalı yox, Qanlıdır. İkincisi, bu toponim həm Qərbi Azərbaycanda, həm də türk tayfalarının məskunlaşdığı digər ərazilərdə çox geniş bir areala malikdir. Deməli, Dərələyəzdəki Qanlı oykonimi türk mənşəli etnotoponimdir.

Zəkəriyyə Kanakertsinin (XVII əsr) və Arakel Davrijesinin (XVII əsr) Arinc formasında qeydə aldıqları bu ad Qərbi Azərbaycanda iki yerdə – Qırxbulaq və Dərələyəz mahalındakı Arınc kəndlərinin adında özünü göstərir. 1590-cı ilə aid türkcə mənbədə Ərinc kimidir. XIX əsrdə Naxçıvan qəzasında (indi Şahbuz rayonunda) Arinc kənd adı ilə eynidir. "Toponimin etimologiyasına gəldikdə, o, qıpçaqların Əncə//İncə tayfasının adından yaranmışdır və Ər-incə komponentlərindən ibarətdir. Bütöv Azərbaycan ərazisində, o cümlədən Qərbi Azərbaycanda "İncə" komponentli onlarla toponim qeydə alınmışdır. Bunlardan İncə kənd adlarını (Sürməli, Maku, Xınzirək nahiyələrində, Dərəkənd-Parçenis mahalında), İncəvar kənd adını (Zəngəzurda), İncədərə kəndini (Vedi nahiyəsində), Zərincə kəndini (Talin mahalında), Əlincə kəndini (Aralıq,

Şirakel nahiyələrində) misal göstərmək olar. Azərbaycanda Göyçay və Şəkidə İncə kəndləri vardır (Bayramov, 2002, s. 304).

Toponimin tərkibindəki birinci komponent isə türk dillərində *"insan, kişi, igid, cəsur, mərd"* mənalarında işlənən *ər* sözünün fonetik variantıdır (ər/ar) – Arınc *"incə tayfasından olan ərlərin (insanların) məskunlaşdığı yer"* mənasındadır.

Mənşə etibarilə maraqlı toponimlərdən biri də **Şorca** oykonimidir. Şorca oykonimi böyük türk tayfalarından birinin – Şor tayfasının adından yaranmışdır (oykonimin tərkibindəki -ca şəkilçisi kiçiltmə mənası bildirir). "Şorlar Şimali Altay və Kuznetsk Alatau rayonu ərazisində, Xakas və Dağlıq Altay vilayətləri ilə qonşuluqda yaşayırlar. Onların ümumi miqdarı 20 minə qədərdir. Əslində qıpçaq qrupuna aid olan şor dilini N. A. Baskakov uyğur-oğuz ailəsinə daxil edir. O, Şərqi-Sibir türk dillərindən olub, daha çox Xakas və Altay dilləri ilə ümumi cəhətlərə malikdir (Budaqov, 1994, s. 80).

Qeyd etməliyik ki, *şor* sözünün müasir Azərbaycan dilində ifadə etdiyi "duzlu, şoran" mənası, kökündə "şor" komponenti olan xüsusi adların etimoloji izahında dolaşıqlığa səbəb olur. Belə ki, Qərbi Azərbaycan toponimlərini tədqiq edən İ.Bayramov bu regionda tərkibində *"şor"* sözü olan 7 coğrafi ad qeydə almış, Şoran kəndi (Artaşat), Şoran dərə (Noyemberyan), Şorbulaq (İrəvan) adlarını haqlı olaraq "duzlu, şoran" mənasında izah etmişdir (Bayramov, 2002, s. 658-661). Lakin onun Şorca və Şor Kolanlı oykonimlərini də bu mənada izah etməsi ilə razılaşmaq olmaz. Çünki bu adlar etnonim mənşəlidir (Şor Kolanlı (Masis) oykonimi *şor* və *kolanlı//kolanı* tayfa adlarının birləşməsindən yaranmışdır), erkən orta əsrlərdə Albaniyada və indiki Ermənistan ərazisində yaşamış türkmənşəli Şor (əsli Çor) tayfasının adını əks etdirir. Peçeneqlərin *Çor (Çur)* tayfasının adındandır. Azərbaycanda Çorman (Kəlbəcər), Çor-Yurt (Yardımlı), Corlu (Qəbələ), Corlu (Gürcüstan) adları ilə eynidir.

İlk dəfə "VII əsr erməni coğrafiyası" adlı mənbədə şorapor ("Şor dərəsi", yaxud "Şor vadisi" mənasındadır) toponimində əksini tapmış bu elin adı ilə bağlı bir sıra toponimlər vardır. Bundan başqa, Zəngibasar mahalında Şorlu, İrəvan qəzasında Şorlu Dəmirçi, Novobayazid qəzasında Şorca, Yelizavetpol quberniyasının Qazax qəzasında (indi Ermənistanın Krasnoselo rayonunda) Şorca, Novobayazid qəzasında Şorcalu kəndləri (iki kənd) olmuşdur. Əfqanıstanda da "Şor" coğrafi adı mövcuddur. Bu toponimlər də, Dərələyəzdəki Şorca oykonimi də qədim türk etnonimi olan *şor* tayfasının adı əsasında formalaşmışdır.

Dərələyəzdəki etnooykonimlərdən biri də **Daylaxlıdır**. Bu etnotoponim haqqında çox müxtəlif fikirlər mövcuddur. Məsələn: "Kitabi-Dədə Qorqud" eposunda işlədilmiş dölək "doğum" sözündən olub "qoyunların döllənən yeri" mənasındadır". "Kəndin adı tayfa adından törənmişdir. Daylaxlı modelində etnotoponimlər çoxdur. Məsələn, Keçili, Bəbirli, Camışlı, Dovşanlı". Göründüyü kimi, birinci izahda Daylaxlı oykoniminin "dölək" apelyativ sözü əsasında yarandığı göstərilir. İkinci izahda isə, professor H.Mirzəyev bu adı etnonim mənşəli hesab etsə də, onu zoonim (daylaq) əsasında formalaşmış etnonim sayır. Lakin bu fikirlə razılaşmaq olmaz. Oykonim qədim *dey//day* etnonimi əsasında yaranmışdır. "Strabon "Coğrafiya" əsərində yazır: "Skiflərin böyük hissəsi, Xəzərdən başlayaraq daylar adlanır". Tədqiqatçı bir sıra faktlara əsaslanaraq *dayları//dailəri* türkdilli hesab edir.

Bu etnonim əsasında Əfqanıstan ərazisində yaranmış Dayok (Pərvan) kəndi, Day kəndi (Kabul), Daykəndi (Kabul), Dəreyi-Dayok toponimlərini qeyd edən R.Eyvazova onları Azərbaycanın Salyan rayonundakı Dayıkənd coğrafi adı ilə eyni mənşəli hesab edir və bu etnonimi Deyok antroponimi ilə əlaqələndirir: "Qədimdə etnos adının əlamətdar fakt, titul məqamlı təltif kimi başçılara, sərkərdə və hökmdarlara verilməsi qanunauyğun adlandırma prosesi olub (bunun əksi də var: şöhrətli başçıların adları etnoslara verilib). Deməli, Deyok (Dayakku) deylər və oqların ittifaqından ibarət tayfadan çıxmışdır. Day tayfalarını skiflərin bir qolu kimi adlandıranlar da vardır. Deməliyik ki, R.Eyvazovanın qeyd etdiyi bu proses – "şöhrətli başçıların adlarının etnosa verilməsi" – Dərələyəzdəki **Canı** oykonimində özünü büruzə verir. Bu oykonimin Canı şəxs adı əsasında yaranması barədə bir sıra mənbələrdə məlumat vardır: "vaxtilə Xələcistandan farsa köçmüş xələclərin şahılı tayfasının rəisi (kələntəri və ya kəndxudası) Canı ağanın ətrafında birləşmək üçün toplanan tayfa və qəbilələr Qaşqay adı altında böyük bir el birliyinə çevrilmişdir..." Canı ağa

Qaşqay elinə təyin edilmiş ilk elbəyidir. Ehtimal ki, bu böyük el birliyinin bir hissəsi sonradan öz başçılarının adı ilə adlanmışlar.

Canı oykoniminin etnonim olması barədə H.Mirzəyev yazır: "Fikrimizcə, Canı sözü qəbilə, nəsil adı ilə bağlıdır. Bunun üçün Canhəsən kənd adına diqqət yetirmək kifayətdir. Burada can sözü tayfa, qəbilə adını bildirməyə xidmət etmişdir. Tayfa, nəsil, qəbilə adlarının xüsusi adın tərkibində işlənməsi türk dillərində qanunauyğun bir haldır və bir sistem təşkil edir" (Mirzəyev, 2004, s. 154).

Canı etnoniminin iştirakı ilə yaranan toponimlərin miqdarı çoxdur: Dərələyəzdə Canı və Canıqabaqlı kəndlərindən başqa, Sabirabad ərazisində Canbağça, Məzrə nahiyəsində Canqur, Abaran nahiyəsində Candar, Karbi nahiyəsində Candarlar, Dərəkənd-Parçenis mahalında Candərviş, İrəvan əyalətinin İqdır nahiyəsində Canəhməd və Canəhməd qışlağı, Abnik nahiyəsində Canəhmədli, Ərmus nahiyəsində Canəhmədli, Novobayazid qəzasında Canəhmədli, Qırxbulaq nahiyəsində Canəhməd Sabitlu, Karbi nahiyəsində Canibəy, İcevan rayonunda Cantəpə, Eçmiadzin qəzasında Canpida, Abaran mahalında Cancik kəndləri və Novobayazid qəzasında Cantəpə dağı qeydə alınmışdır. Türkiyənin Trabzon şəhərinin yaxınlığında mərkəzi Samsun olan Canı mahalı da vardır.

Bundan başqa, Krımda Canılar, Canlar, Cangöy, Xankənd yaxınlığında Canhəsən, Qazaxda Canallıq, Ağdərədə Canyataq, Xaçmazda Canaxır adlı kəndlər vardır. Adın belə geniş bir arealda yayılması onun etnotoponim olmasını bir daha sübut edir.

Dərələyəzdəki **Qaralar** oykonimi Qafqaz ərazisində ən geniş yayılmış etnotoponimlərdən biridir. "Qafqazın beş verstlik xəritəsi"ndə Cənubi Qafqazda mövcud olan 10 Qaralar kəndi qeydə alınmışdır.

Hal-hazırda Azərbaycan Respublikası ərazisində 7 Qaralar (İmişli (2), Qubadlı, Saatlı, Sabirabad, Şəmkir, Tovuz) kəndi, 1 Qaralı (Sabirabad) və 1 Qaralılar (Beyləqan) kəndi vardır. Tərkibində qara komponenti olan oykonimlərin sayı isə 165-dir. Qərbi Azərbaycanda Qaralar adlı 5 kənd (İrəvan qəzası, Vedi rayonu, Dərələyəz mahalı, Zəngəzur qəzası (Sisyan rayonu), Vedibasar mahalı), tərkibində qara komponenti olan 200-dən çox toponim qeydə alınmışdır. Qeyd edək ki, qara sözünün dilimizdə qara (rəng), qaranlıq, zülmət, tutqun, sərt, qəmli, kədərli, bədbəxt, mal-qara, xalq, camaat, torpaq, təpə, hündür, yüksək, böyük, ağır və s. mənaları vardır. Coğrafi adlarda qara sözü yuxarıda göstərilən mənaların bəzilərində işlənir: toponimlərdə qara sözü dağ, dağ zirvəsi, təpə, qaya və s. adlarında hündür, yüksək, uca, əzəmətli, nəhəng mənalarında, hidronimlərdə ağır (içməyə yararsız) mənasında işlənir. Lakin bu məna çalarları, qara sözü coğrafi adların birinci komponenti kimi çıxış etdikdə özünü göstərir.

Deməli, müstəqil surətdə yer adı kimi işlənən qara sözü (cəm şəkilçisi ilə) bu mənalardan uzaqdır. Qaralar oykonimi orta əsrlərdə Anadoluda yaşamış Yerük tayfa ittifaqının Qara elinin adını əks etdirir. Qaralar toponiminin belə geniş bir arealda yayılmasının səbəbi də məhz etnonimlə bağlı olmasındadır.

## Nəticə

Beləliklə, Qərbi Azərbaycan ərazisində olan yuxarıda göstərdiyimiz bu oykonimlərin təhlilindən belə bir nəticə çıxarmaq olar ki, bu adlar türk mənşəli etnonimlər əsasında formalaşmışlar. Deməli, bu torpaqlarda hələ qədim dövrlərdən azəri türkləri məskunlaşmışdılar.

## Ədəbiyyat

1. Ağasıoğlu, F. (2000). *Azər xalqı*. Elm.
2. Bayramov, İ. (2002). *Qərbi Azərbaycanın türk mənşəli toponimləri*. Elm və təhsil.
3. Budaqov, B. (1994). *Türk uluslarının yer yaddaşı*. Elm.
4. Budaqov, B., Qeybullayev, Q. (1998). *Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti*. Elm.
5. Bünyadov, Z., Məmmədov, H. (1996). *İrəvan əyalətinin icmal dəftəri*. Elm.
6. Eyvazova, R. (1995). *Əfqanıstanda türk mənşəli toponimlər*. Maarif.
7. Ələkbərli, Ə. (2006). *Qərbi Azərbaycan abidələri*. Nurlan.
8. Ələkbərli, Ə. (2000). *Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı*. Elm və təhsil.

9. Məmmədov, N. (1993). *Azərbaycanın yer adları*. Elm.
10. Mirzəyev, H. (2004). *Qərbi Azərbaycanın Dərələyəz mahalı*. Elm.
11. Seyidov, M. (1989). *Azərbaycan xalqının soykökünü düşünərkən*. Yazıçı.

Daxil oldu: 21.08.2024
Baxışa göndərildi: 11.09.2024
Təsdiq edildi: 28.10.2024
Çap olundu: 30.11.2024